# XX ƏSRİN 20-60-CI İLLƏRİNDƏ AZƏRBAYCANDA HÜQUQ ELMİNİN VƏZİYYƏTİ

# THE SITUATION OF JURISPRUDENCE IN AZERBAIJAN IN THE 20-60S OF THE XX CENTURY

**Zaur Məmmədov**

***AMEA Elm Tarixi İnstitutunun “Elmşünaslıq və elmin sosial problemləri” şöbəsinin baş elmi işçisi, hüquq elmləri doktoru, dosent***

**Zaur Mammadov**

***Chief researcher of the department of "Science and social problems of science" of the Institute of History of Science of ANAS, doctor of legal sciences, associate professor***

***Bakı, Azərbaycan / Baku, Azerbaijan***

**e-mail:**

**Pages / səhifələr – 61-64**

***UOT***
***UDC***: 321 (091)

***ORKID İD***
***ORCID ID***:
0000-0003-3953-0175

***Daxil oldu***
***Received***: 18.04.2022

***Qəbul olundu***
***Accepted***: 20.06.2022

***Redaktə etdi***
***Edited*** by
Dr. Elvin Talyshinsky

***Açar sözlər****: hüquq, elm, cinayət hüququ, Sovetlər Birliyi, Azərbaycan*

***Xülasə***

Məqalə XX əsrin 20-60-cı illərində Sovetlər Birliyinin tərkibində olan Azərbaycanda hüquq elminin yaranması və inkişafına həsr olunmuşdur. Müəllif bəhs olunan dövrlərdə elmin inkişaf dinamikasını göstərməklə bərabər elmin inkişafını üç dövrə bölmüşdür.

***Keywords:*** *law, science, criminal law, Soviet Union, Azerbaijan*

***Summary***

The article deals with the establishment and development of jurisprudence in Azerbaijan, which was part of the Soviet Union in the 20s and 60s of the twentieth century. The author divides the development of science into three periods, showing the dynamics of the development of science in the mentioned periods.

***Ключевые слова:*** *право, наука, уголовное право, Советский Союз, Азербайджан.*

***Резюме***

В статье рассматривается становление и развитие юриспруденции в Азербайджане, входившем в состав Советского Союза в 20-х и 60-х годах XX века. Автор делит развитие науки на три периода, показывая динамику развития науки в указанные периоды.

İlk növbədə qeyd etmək zəruridir ki, “Azərbaycanda hüquq elminin vəziyyəti” ifadəsi şərtidir, çünki vaxtı ilə SSRİ-nin tərkibində olmuş keçmiş müttəfiq respublikaların hüquq elminin inkişafını böyük bir imperiyanın hüquq elminin inkişafından təcrid edilmiş şəkildə nəzərdən keçirmək qeyri-mümkündür. Bu onunla izah edilə bilər ki, 30 dekabr 1922-ci ildən (SSRİ-nin təşkilindən) sonra İttifaqa daxil olan müttəfiq respublikaların istər hüquq sistemi, istərsə də qanunvericilik sistemi bütünlüklə mərkəzin tələb və göstərişlərinə tabe edilmişdi. Keçmiş müttəfiq respublikalarının heç biri hər hansı qanunvericilik aktı qəbul etməkdə müstəqil deyildi və əgər belə bir təşəbbüs göstərilərdisə, bu, mütləq surətdə mərkəzlə razılaşdırılmalı idi. Belə təşəbbüslərə isə SSRİ-nin varlığı dövründə nəinki səy göstərilməmiş, ümumiyyətlə, buna hər hansı meyllər olmamışdır.

Sovet hakimiyyətinin qurulmasının ilk illəri bütün müttəfiq respublikaların, o cümlədən Rusiyanın və Azərbaycanın hüquq elmi üçün çətin dövr olmuşdur. Dağıdılmış quruluşla eyni vaxtda onun hüquqi dayaqlarının sındırılması, burjua hüquq sistemi və qanunvericilik sisteminin proletariat diktaturası üçün münasib olmayan prinsiplərinin məhv edilməsi və ya onların tətbiqindən imtina olunması, bununla yanaşı yeni hüquq sisteminin və qanunvericilik sisteminin əsaslarının yaradılmasının bir qədər uzanması hər şeydən əvvəl hüquq elminin, onun nəzəri müddəalarının təxirə salınmadan işlənib hazırlanmasını, hüquq normalarının tətbiqi mexanizmlərinin yeniləşdirilməsini, yeni sosialist hüququ sahəsi və praktika üçün ixtisaslı kadrların hazırlanmasını və s. bu kimi vacib problemlərin həllini ön plana çıxarmışdır. Ona görə də Rusiya İnqilab Komitəsinin ilk sərəncamlarından biri ilə belə bir hal müəyyən edilmişdi ki, yeni qanunvericilik aktlarının hazırlanması və qəbul edilməsinədək keçmiş burjua qanunvericiliyinin yeni quruluş tələbatlarına zidd olmayan qanunlarından (bu, daha çox prosessual hüquq sahələrini əhatə edirdi) istifadə olunması məqbul hesab edilir.

Keçmiş sovet sosialist hüququnun inkişafında ənənəvi olaraq aşağıdakı 3 (üç) dövr fərqləndirilmişdir:

1) sovet hüquq elminin formalaşması dövrü (1930-cu ilədək davam etmişdir). Bu dövrdə alimlərin marksist-leninçi dövlət və hüquq nəzəriyyəsinə yanaşmalarında bir sıra fərqlər müşahidə edilmişdir;

2) hüquqi paradiqmaların müəyyən edildiyi dövr (1930-1950-ci illər). Bu dövr ərzində ictimai elmlər üzərində sərt və ciddi partiya, dövlət nəzarəti müəyyən edilmiş, hüquqşünas alimlərin yalnız marksist-leninçi hüquq nəzəriyyəsi təliminə arxalanmaları qətiləşdirilmişdir;

3) hüquq elminin növbəti təkamül dövrü (1950-1991-ci illər). Keçmiş SSRİ-də hüquqi dərketmənin mahiyyətinə əsas yanaşmalar çox gec, yalnız əsrin 50-ci illərindən təzahür etməyə başlamışdır. Buna qədər isə sovet sosialist hüquq elmi bu elm sahəsinin bütün neqativ təzahürlərini sosializmə qədərki istismarçı formasiyaların adına çıxır, müsbət olanları isə heç bir elmi əsas olmadan özününküləşdirirdi.

Bildirməyi zəruri hesab edirik ki, Azərbaycanın hüquq elminin tamamilə sovetləşdirilməsi SSRİ-nin təşkilindən sonra daha intensiv xarakter almışdır. Ədalət naminə qeyd etmək lazımdır ki, ölkənin hüquq elminin inkişafı üçün onun Avropaya çıxmasına, geniş bir "pəncərəyə" ehtiyac var idi. Azərbaycan özü təkcə bunun öhdəsindən yalnız müstəqil olduğu zaman gələ bilərdi. Böyük bir imperiyanın tərkibində isə belə imkan yox dərəcəsində idi. Belə bir imkanı Azərbaycanın hüquq elmi sahəsində çalışan hüquqşünas-tədqiqatçılara məhz rus hüquqşünas-alimləri verdilər. Azərbaycanın sayca son dərəcə az olan (hüququn elə sahələri var idi ki, Azərbaycanda, ümumiyyətlə, belə mütəxəssislər yox idi) hüquqşünasları rus alimləri ilə yaxın əlaqələrin qurulması, bəzi ziyalıların Rusiyanın ali məktəblərində hüquqşünaslıq peşəsinə yiyələnməsi (bu proses hələ Rusiyadakı Oktyabr dövlət çevrilişinə qədərki dövrlərdə baş verməyə başlamışdır) nəticəsində özlərinin hüquqi elmi dünyagörüşünü genişləndirə bildilər. Daha doğrusu, bu cəhətdən İttifaqın tərkibində olmaq elmin müştərək inkişafına əlverişli şərait yaradırdı. Qarşılıqlı elmi fikir mübadilələrinin, müxtəlif mövzularda ümumittifaq konfranslarının, hüququn ayrı-ayrı sahələri üzrə elmi diskussiyalar şəbəkəsinin genişləndirilməsi hüquq elminin inkişafına müəyyən istiqamət verirdi.

Azərbaycanın keçmiş SSRİ-nin tərkibinə daxil edilməsi müəyyən mənada həm də ölkənin bəzi xarici dövlətlərlə beynəlxalq-hüquqi əlaqələrinin yaranmasına imkan verirdi. Beynəlxalq-hüquqi əməkdaşlıq eyni

zamanda hüquq elmlərinin inkişafına da müsbət təsir göstərirdi. Belə qarşılıqlı əlaqələrin yaranması və genişlənməsi hüquq elminin problemləri ilə bağlı qarşılıqlı fikir mübadiləsinin aparılmasına, eləcə də təcrübə mübadiləsinə şərait yaradır, digər tərəfdən də milli hüququn inkişaf perspektivlərinin müəyyənləşdirilməsinə, xarici müsbət praktikanın öyrənilməsinə kömək edirdi.

Azərbaycanda hüquq elminin sovet sistemi üzrə inkişafı sahəsində ilk addımlardan biri mülki hüquq elmi sahəsində atıldı. Cəmiyyətdə əmlak və şəxsi qeyri-əmlak münasibətlərinin tənzim edilməsində ən başlıca rola malik olan mülki hüquq elminin inkişafı eyni zamanda mülki-prosessual hüquq elminin inkişafına əlverişli şərait yaratmaq demək idi. Digər tərəfdən, sosialist ictimai mülkiyyət formasının bərqərar olması mülki hüquqlar sferasında yeni norma və prinsiplərin, elmi müddəaların işlənib hazırlanması və praktiki tətbiqini zəruri edirdi. Bunun ən mühüm elmi-nəzəri və praktiki göstəricilərindən biri kimi 16 iyun 1923-cü il tarixdə 524 maddədən ibarət Azərbaycan SSR Mülki Məcəlləsinin qəbulu oldu. Həmin Məcəllənin 1-ci və 2-ci maddələrində göstərilirdi ki, "mülki hüquqlar, onların ictimai-təsərrüfat təyinatlarına zidd olaraq həyata keçirildiyi hallar istisna edilməklə, qanunla qorunur.

Mülki hüquqa dair mübahisələr məhkəmə qaydası ilə həll edilir. Məhkəməyə müraciət etmək hüququndan imtina etmək dürüst deyildir" [Azərbaycan SSR-in Mülki Məcəlləsi (1923-cü il). Azərbaycan SSR-in Mülki Məcəlləsi (1964-cü il): Bütün əlavə və dəyişikliklər də daxil olmaqla məcəllələrin bərpa edilmiş tam mətnləri, 2013:.36].

Qeyd olunan Məcəllədə nikah, ailə və qəyyumluq hüququnun hər biri ayrıca bölümdə - müvafiq olaraq 436-461, 462-491 və 492-524-cü maddələri əhatə etməklə öz əksini tapmışdı. Bu, eyni zamanda Azərbaycan nikah və ailə hüquq elminin inkişafına zəmin yaradırdı.

Sosializm cəmiyyətində yeni əmək münasibətlərinin bərqərar olması nəticəsində yaranmış sosialist əmək sistemi əmək qanunvericiliyinin yeni prinsiplərinin işlənib hazırlanmasını, kollektiv müqavilələr bağlanması, əməyin mühafizəsi və s. qaydalarının yaradılmasını gündəliyə gətirmişdi. Bu, təxirəsalınmaz tədqiqatların aparılmasını labüd edirdi. Belə bir vəzifənin öhdəsindən isə, şübhəsiz ki, ilk növbədə Azərbaycanın əmək hüququ elmi gələ bilərdi. Lakin bir məsələni də qeyd etmək zəruridir ki, o dövrdə əmək normativləri yalnız mərkəz tərəfindən müəyyənləşdirilirdi və bütün müttəfiq respublikalar, o cümlədən Azərbaycan öz qanunvericiliyini və əmək hüququ elminin inkişaf istiqamətlərini bunun əsasında müəyyən edə bilərdi. Bunun nəticəsi olaraq 1923-cü il yanvarın 1-dən Azərbaycanda Əmək Qanunları Məcəlləsi qüvvəyə minmişdir.

1930-1950-ci illər Azərbaycanın hüquq elminin inkişafında bəzi müsbət nəticələri ilə diqqəti cəlb etsə də, əsrin 40-cı illərinə yaxın beynəlxalq vəziyyətin mürəkkəbləşməsi bu sahədə öz neqativ təzahürlərini büruzə vermişdir. 14 mart 1937-ci il tarixdə 14 fəsil və 154 maddədən ibarət olan Azərbaycan Sovet Sosialist Respublikasının Konstitusiyasının [2] qəbulu ictimai həyatın bütün sahələrində olduğu kimi, hüquq elmi sferasında da öz müsbət cəhətləri ilə yadda qalmışdır. Məhz Əsas Qanunun qəbulundan sonra ölkənin hüquq elminin təkamül dövrü başlamışdır. Azərbaycanın mülki hüquq, cinayət hüququ, əmək hüququ, mülki-prosessual hüquq elminin inkişafı istiqamətində xeyli tədqiqatlar yerinə yetirilmişdir. Məsələn, cinayət hüququ elmində cinayətə elmi anlayış verilmiş, cinayətlərin əlamətləri konkretləşdirilmiş və cinayət tərkibinin ünsürləri dəqiqləşdirilmişdir. Cinayət-prosessual hüquq

elminin əsas prinsipləri (cinayət işlərinə baxılmasının şifahiliyi, müttəhimin müdafiə hüququnun təmin edilməsi, hakimlərin müstəqilliyi və s.) müəyyənləşdirilmiş və elmi cəhətdən əsaslandırılmışdır. Cinayət prosessual hüquq elmində ilk dəfə olaraq mühakimə icraatında "çəkişmə" prinsipinin tətbiqi təklif edilmiş və o, sonrakı illərdə öz reallığını tapmışdır.

Azərbaycanda hüquq elmi öz inkişafında mühüm yenilikləri 1950-ci illərdən sonra hiss etməyə başladı. Həmin elmi inkişaf 1985-ci ilə qədər fasiləsiz olaraq davam etdi.

25 dekabr 1958-ci ildə 47 maddədən ibarət olan "SSR İttifaqı və müttəfiq respublikaların cinayət qanunvericilik Əsasları"nın, 8 dekabr 1961-ci il tarixdə 129 maddədən ibarət olan "SSR İttifaqı və müttəfiq respublikaların mülki qanunvericilik Əsasları"nın qəbul edilməsi ümumən sovet hüquq elmində yeni inkişaf mərhələsinin başlanğıcı demək idi.

25 dekabr 1958-ci ildə və 8 dekabr 1961-ci il tarixdə qəbul olunmuş Əsaslar hüquq elminin inkişafında tam olmasa da, bir sıra yeni istiqamətlər müəyyən etdi. Məsələn, "SSR İttifaqı və müttəfiq respublikaların cinayət qanunvericilik Əsasları" rəhbər tutularaq hazırlanmış və Azərbaycan SSR-in 8 dekabr 1960-cı il tarixli Qanunu ilə təsdiq edilərək 1961-ci il martın 1-dən qüvvəyə minmiş, 264 maddədən ibarət olan Azərbaycan SSR Cinayət Məcəlləsinin 1-ci maddəsində göstərilirdi ki, "Azərbaycan SSR Cinayət Məcəlləsinin vəzifəsi Sovet ictimai və dövlət quruluşunu, sosialist mülkiyyətini, şəxsiyyəti və vətəndaşların hüquqlarını və bütün sosialist hüquq qaydalarını cinayətkar qəsdlərdən qorumaqdır.

Bu vəzifəni həyata keçirməkdən ötrü Azərbaycan SSR Cinayət Məcəlləsi hansı ictimai təhlükəli əməllərin cinayət əməli olduğunu müəyyən edir və cinayət törətmiş şəxslərə tətbiq ediləcək cəzaları təyin edir" [Azərbaycan SSR Cinayət Məcəlləsinin təsdiq edilməsi haqqında Azərbaycan SSR-in 1960-cı il 8 dekabr tarixli Qanunu. Azərbaycan SSR Ali Sovetinin Məlumatı, 1960-cı il, № 29, maddə 143].

Bundan başqa, ölkəmizin cinayət qanunvericiliyinin bir sıra normalarının sanksiyaları humanistləşdirildi və onların bəzilərinə yeni demokratik məzmun verildi.

## ƏDƏBİYYAT


***Azərbaycan SSR-in Mülki Məcəlləsi (1923-cü il). Azərbaycan SSR-in Mülki Məcəlləsi (1964-cü il):*** Bütün əlavə və dəyişikliklər də daxil olmaqla məcəllələrin bərpa edilmiş tam mətnləri (2013). Bakı: Hüquq Yayın Evi

***Azərbaycan Sovet Sosialist Respublikasının 14 mart 1937-ci il tarixli Konstitusiyası (1937)***. Bakı: AzPartnəşr

***Azərbaycan SSR Cinayət Məcəlləsinin təsdiq edilməsi haqqında*** Azərbaycan SSR-in 1960-cı il 8 dekabr tarixli Qanunu. Azərbaycan SSR Ali Sovetinin Məlumatı, 1960-cı il, № 29, maddə 143